# Ümummilli lider Heydər Əliyevin xatirəsi xarici ölkələrdə anılıb

## Rusiya

❐ ***Dekabrın 11-də Azərbaycanın Rusiyadakı səfirliyində Azərbaycanın Əməkdar Jurnalisti, Milli Məclisin deputatı Elmira Axundovanın “Heydər Əliyev: Şəxsiyyət və zaman” üçcildlik roman-tədqiqatının təqdimatı keçirilib. Heydər Əliyev Fondunun dəstəyi ilə “Kanon-plyus” nəşriyyatında çapdan çıxmış üçcildlikdə bu dahi şəxsiyyətin həyat və fəaliyyətinin müxtəlif dövrləri barədə maraqlı faktlar, onun müsahibələri və arxiv materialları toplanıb.***



Həmin gün tanınmış siyasi və ictimai xadimlər, Heydər Əliyevin dostları və məsləkdaşları, dost ölkələrin səfirləri Ulu Öndərin xatirəsini yad etmək üçün Azərbaycanın Rusiyadakı səfirliyinə gəlmişdilər.

Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlu gecəni açaraq qeyd edib ki, ənənəyə görə Azərbaycan xalqının ümummilli liderinin anım günündə Heydər Əliyevin dostları və məsləkdaşları onun dəfələrlə olduğu bu səfirliyin binasında toplaşırlar. Bu dəfə görkəmli dövlət xadimi Heydər Əliyevin xatirə günündə yazıçı-publisist, ulu öndərin irsinin tədqiqinə illərlə vaxt sərf etmiş Elmira Axundovanın yeni üçcildliyi təqdim olunacaq.

P.Bülbüloğlu deyib: “Elə insanlar var ki, onlar çox şeyi müəyyən edir. Biz deyəndə ki, Heydər Əliyev müasir Azərbaycanın memarıdır, - bu həqiqətən belədir. Ona görə ki, SSRİ dağılandan sonra insanlar hədsiz təşviş keçirdiyi, özlərini çıxılmaz vəziyyətdə hiss etdiyi bir vaxtda iş elə gətirdi ki, Azərbaycanda hakimiyyətə gələn insanlar bu hakimiyyətlə necə rəftar etməyi əsla bilmirdilər. Qısa müddətdə ölkə vətəndaş müharibəsi həddinə, uçurum həddinə çatmışdı. Belə bir vaxtda xalqımız Heydər Əliyevə müraciət edərək onun Bakıya qayıtmasını xahiş etdi. Müasir Azərbaycanın təşəkkülü Heydər Əliyevin respublika rəhbərliyinə qayıtdığı andan başlanır”.

Diplomat qeyd edib ki, onun özünün də bir şəxsiyyət və bəstəkar kimi formalaşmasında ulu öndər böyük rol oynayıb. P.Bülbüloğlu deyib: “Mən Heydər Əliyevin hökumətində on il mədəniyyət naziri vəzifəsində işləmişəm. Bu, böyük məktəbdir, bu məktəb ömrümün sonuna qədər mənimlə qalacaq. Heydər Əliyevin sayəsində Azərbaycanda mədəniyyət və incəsənət xadimlərinin bütöv bir pleyadası yetişib”.

Kitabın müəllifi Elmira Axundova bu genişmiqyaslı layihənin həyata keçirilməsində göstərilən dəstəyə görə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevaya, Heydər Əliyev Fondunun icraçı direktoru, Azərbaycanın Birinci vitse-prezidentinin köməkçisi Anar Ələkbərova təşəkkürünü bildirib. O qeyd edib ki, “Heydər Əliyev: Şəxsiyyət və zaman” altıcildliyinin bu yeni variantı xarici ölkələrdəki oxucular, o cümlədən rusiyalı oxucular üçün nəzərdə tutulub. Kitabda Heydər Əliyev haqqında bu günə qədər məlum olmayan faktlar toplanıb. Roman arxiv sənədləri və rəsmi sənədlər, Azərbaycan xalqının ümummilli liderinin dostları, doğmaları və məsləkdaşları ilə yüzlərlə söhbətin lent yazıları əsasında qələmə alınıb. Kitabın müəllifi deyib: “1991-ci ilin yanvar ayını xatırlayıram. Naxçıvanda darısqal bir mənzildə əyləşmişdik. O mənə öz keçmişi barədə, Mixail Qorbaçov ilə qarşılıqlı münasibətləri barədə, SSRİ-nin məhvə məhkum olması, Azərbaycanın tezliklə müstəqil olacağı və bunun üçün bizim hamımızın çalışmalı olmağımız barədə danışırdı. Mən Heydər Əliyevə baxır, onun dediklərini tam anlaya bilmirdim. O vaxt bəlkə heç kəs güman edə bilməzdi ki, Azərbaycanın sabiq kommunist lideri, Siyasi Büronun üzvü tezliklə bütün dünyanı heyrətləndirəcək. O, birincilərdən biri olaraq Naxçıvanda Sovet Hakimiyyətini ləğv edəcək, birinci Azərbaycan Xalq Cümhuriyyətinin himnini və bayrağını qaytaracaq, Naxçıvanı soyuqdan, aclıqdan, parçalanmaqdan və işğaldan xilas edəcək. Üç ildən sonra isə o, xalqın iradəsi ilə Azərbaycanda hakimiyyətə qayıdacaq, vətəndaş müharibəsinin qarşısını alacaq, ölkənin parçalanmasını dayandıracaq, döyüş qabiliyyətli ordu yaradacaq, neft kontraktları imzalayacaq və keçmiş İttifaqda birinci olaraq torpaq üzərində xüsusi mülkiyyət elan edəcək.

E.Axundova kitabın qəhrəmanının uğurunun sirri nədədir? - sualına cavab olaraq vurğulayıb ki, Heydər Əliyev tarixi şəraitlə birlikdə dəyişməyi bacarırdı və bunu çox üzvi şəkildə edirdi. O deyir: “Onun üçün başlıca məsələ - ölkənin və xalqın milli maraqları idi. Mənim üççildliyimin iki qəhrəmanı var – Heydər Əliyev və XX əsr. Mənim qəhrəmanım kimi, bu dövr özü də faciəli, ziddiyyətli, çoxölçülü və parlaqdır. Heydər Əliyevin ömür yolu çox çətin olub. Tale yollarında onu yüksəliş və enişlər, gəncliyində bütün varlığı ilə inandığı idealların iflasa uğramasını görmək, sədaqətlə xidmət etdiyi ölkənin parçalanmasının şahidi olmaq gözləyirdi. O, yeni dövrə qədəm qoymalı və həyatını təzə səhifədən başlamalı oldu. Bir neçə tarixi dövr uzunluğunda bu həyat bütün XX əsri əks etdirirdi. Heydər Əliyev xoşbəxt insan idi və onun ən böyük xoşbəxtliyi onun zəhmətinin bəhrəsi olan yenilənmiş Azərbaycandır”.

RF Dövlət Dumasının beynəlxalq məsələlər komitəsinin sədri Leonid Slutski üçcildliyin müəllifi Elmira Axundovaya bu kitabın yaradılması üçün çəkdiyi böyük zəhmətə görə təşəkkürünü bildirib. L.Slutski deyib: “Bu, gözəl kitabdır. Bu zaldakı adamların çoxu yəqin ki, “Görkəmli adamların həyatı” seriyasından olan kitabları oxuyublar. Lakin öz dərinliyi ilə fərqlənən bu kitab müasir Azərbaycanın yaradıcısı olan insanın həyatından bəhs edir. Bu gün firavanlaşan, müstəqil, uğurlu Azərbaycanı onun banisi olmuş insandan ayrı təsəvvür etmək mümkün deyil. Azərbaycan məhz bu insanın sayəsində müstəqil dövlət kimi formalaşıb. Belə kitabları oxuyanda başa düşürsən ki, bu sətirlərin müəllifi incə qəlbli bir insan, öz qəhrəmanını çox sevən bir qadındır. Bu, çox sanballı əsərdir. Onu vərəqləmək yox, oxumaq və təsirini Azərbaycanın hüdudlarından uzaqlarda da hiss etdiyimiz böyük şəxsiyyətlə təmasda olmaq lazımdır. İndi onun işini Prezident İlham Əliyev uğurla davam etdirir və Azərbaycan məhz Heydər Əliyevin nəzərdə tutduğu kimi böyük sıçrayış edib. Azərbaycan həm iqtisadiyyatda, həm sosial siyasətdə, həm də başqa ölkələrlə, o cümlədən Rusiya ilə əməkdaşlıqda mütəmadi inkişaf yolu ilə inamla irəliləyir”.

L.Slutski əmin olduğunu bildirib ki, Heydər Əliyevə hələ çox maraqlı əsərlər həsr ediləcək. Siyasətçi vurğulayıb: “Lakin Azərbaycanın böyük oğluna həsr edilmiş bu üçcildlik həmişə xüsusi yer tutacaq”. Dövlət Dumasının deputatı Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğluna da ikitərəfli münasibətlərin inkişafı naminə uğurlu diplomatik işinə görə təşəkkürünü bildirib.

Təqdimat mərasimində Rusiya Rəssamlıq Akademiyasının prezidenti Zurab Sereteli, Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun (MDBMİ) professoru, Rusiya Politologiya Cəmiyyətinin prezidenti Oksana Qaman-Qolutvina, Rusiya Neft-Qaz Sənayeçiləri İttifaqının prezidenti Gennadi Şmal, RF-nin Əməkdar rəssamı Nikas Safronov, Gürcüstan “Mədəniyyətlərin dialoqu-XXI” Assosiasiyasının prezidenti Valeri Asatiani çıxış ediblər.

Qeyd edək ki, “Heydər Əliyev: Şəxsiyyət və zaman” üçcildliyi ümummilli lider Heydər Əliyev haqqında Moskvada nəşr edilmiş ilk böyük əsərdir. Qazaxıstanın Xalq yazıçısı Oljas Süleymenov üçcildliyə ön sözdə yazır: “E.Axundovanın bu kitabı məhəbbətdən yaranıb. Belə kitablar lazımdır: onlar rəhbərlərin yeni nəslinin yetişdirilməsinə kömək edir. Bir ölkədə iki dövlətin rəhbəri olmuş Heydər Əliyevin nadir təcrübəsi xüsusilə qiymətlidir”.

Xatırladaq ki, yazıçı-publisist Elmira Axundova “Heydər Əliyev: Şəxsiyyət və zaman” altıcildliyinə görə Azərbaycan dövlət mükafatına layiq görülüb.

*Fəridə ABDULLAYEVA,*
*AZƏRTAC-ın xüsusi müxbiri*

**Moskva**

## ABŞ

❐ ***Azərbaycanın ABŞ-dakı səfirliyində ümummilli lider Heydər Əliyevin xatirəsinə həsr olunmuş tədbir keçirilib. Tədbirə ABŞ ictimaiyyətinin nümayəndələri, bu ölkədə yaşayan həmyerlilərimiz və səfirliyin əməkdaşları ilə yanaşı, Xocalı faciəsinə həsr olunmuş “Sülh laylayı” (The Lulluby of Peace) adlı musiqi əsərinin hazırlanmasında iştirak etmiş Vaşinqton Beynəlxalq Piano Sənəti Şurasının çoxsaylı nümayəndələri də qatılıb.***

Tədbirdə səfir Elin Süleymanov ümummilli liderin Azərbaycanın inkişafı və xalqımızın rifahında rolu, göstərdiyi misilsiz xidmətlərindən bəhs edib. Azərbaycan dövlətçiliyinin qurulmasında müstəsna xidmətləri olan ulu öndər Heydər Əliyevin uzaqgörən siyasəti, müdrik və qətiyyətli addımları nəticəsində ölkənin hərtərəfli inkişafına nail olunduğu söyləyib. Müasir Azərbaycan dövlətinin banisi olan ulu öndərin qətiyyətli mövqeyinin və uzaqgörənliyinin nəticəsi olaraq Azərbaycanın irimiqyaslı tarixi layihələrə imza atdığı bildirilib.



Qeyd edək ki, bu günlərdə ulu öndərin xatirəsinə həsr edilmiş silsilə görüşlər, tədbirlər keçirilir. Belə ki, Heydər Əliyevin anım günü çərçivəsində ABŞ-ın Merilend ştatının Qida Bankına Azərbaycan tərəfindən ianə edilib. Merilend Qida Bankının prezidenti Karmen Del Qersio və Hökumətlə Əlaqələr üzrə direktoru Nensi Smitlə səfirlikdə keçirilən görüş zamanı Elin Süleymanov ümummilli lider Heydər Əliyevin bir neçə dəfə Merilend ştatına səfər etməsindən bəhs edib və dahi liderin sayəsində Azərbaycan-ABŞ münasibətlərinin inkişaf edərək strateji önəm almasını vurğulayıb. Səfir ümummilli liderin siyasətini uğurla davam etdirən Azərbaycan Prezidenti tərəfindən aparılan uğurlu siyasət nəticəsində ölkə əhalisinin yaşayış səviyyəsinin yaxşılaşması, həmçinin yoxsulluq səviyyəsinin kəskin dərəcədə azalmasından bəhs edib.

Merilend Qida Bankının prezidenti K.Qersio Azərbaycanın ümummilli lideri Heydər Əliyevin anım günü ilə bağlı Merilend Qida Bankına ölkəmizin yardımının artıq çox gözəl bir ənənəyə çevrildiyini qeyd edib və buna görə Azərbaycan tərəfinə dərin minnətdarlığını bildirib. O, həmçinin ümummilli lider Heydər Əliyevin əziz xatirəsi ilə bağlı yaranmış əməkdaşlığın Azərbaycanla Merilend ştatı arasında bağların daha da möhkəmlənməsinə səbəb olduğunu söyləyib.

N.Smit 1979-cu ildən fəaliyyət göstərən Merilend Qida Bankının vasitəsilə hər il ehtiyacı olan yüz minlərlə amerikalıya qida məhsullarının paylanıldığını qeyd edib və bu il Azərbaycan tərəfindən edilən töhfə nəticəsində qarşıdan gələn Milad və Yeni il bayramları ərəfəsində on beş min ehtiyacı olan insanın yeməklə təmin olunacağını vurğulayıb.

Bundan başqa, səfirliyin təşkilatçılığı ilə Vaşinqton şəhərində yerləşən İslam Mərkəzində cümə namazı zamanı ümummilli lider Heydər Əliyevin ruhuna dualar oxunub və ona Allahdan rəhmət dilənib. İslam Mərkəzinin direktoru doktor Abdulla Xuc iştirak edənlərə Heydər Əliyevin həyat və fəaliyyəti, Azərbaycan xalqının tarixində oynadığı misilsiz rolu barədə məlumat verib. Cümə namazının ardından təşkil edilən ehsan süfrəsində 300 nəfər iştirak edib.

*Yusif BABANLI,*
*AZƏRTAC-ın xüsusi müxbiri*

**Vaşinqton**









## Türkiyə

❐ ***Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin vəfatının 14-cü ildönümü ilə əlaqədar ölkəmizin Türkiyənin Qars şəhərindəki baş konsulluğunda anım mərasimi keçirilib.***

Əvvəlcə baş konsulluğun kollektivi, bu şəhərdə yaşayan, çalışan və təhsil alan həmvətənlərimiz ulu öndərin Qarsın mərkəzində yerləşən Heydər Əliyev Parkındakı heykəli önünə gül-çiçək düzüb, xalqımızın xilaskar oğlunun əziz xatirəsini ehtiramla yad ediblər.

Baş konsulluqda davam edən mərasimdə əvvəlcə ulu öndərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Sonra ümummilli lider Heydər Əliyevin zəngin, mənalı həyat və fəaliyyətini əks etdirən sənədli film nümayiş olunub.

Sonra ehsan süfrəsi verilib.

Ulu öndər Heydər Əliyevin yarım əsrə yaxın dövrü əhatə edən siyasi fəaliyyətinin ayrı-ayrı istiqamətlərindən bəhs edən baş konsul Nuru Quliyev bildirib ki, ümummilli lider Türk dünyasının birliyi, eləcə də Azərbaycan və Türkiyənin inkişafı naminə nəhəng işlər görüb. Odur ki, qədirbilən xalqlarımız bundan sonra da ümummilli lider Heydər Əliyevin xatirəsini əziz tutacaqdır.

*Sabir ŞAHTAXTI,*
*AZƏRTAC-ın xüsusi müxbiri*

**Qars**

## Çin

❐ ***Azərbaycanın Çin Xalq Respublikasındakı səfirliyinin təşkilatçılığı ilə Pekində ümummilli lider Heydər Əliyevin vəfatının ildönümü münasibətilə anım mərasimi keçirilib.***

Səfir Əkrəm Zeynallı Azərbaycan xalqının ümummilli lideri, müstəqil Azərbaycan dövlətinin qurucusu Heydər Əliyevin tarixin yetirdiyi ən dahi şəxsiyyətlərdən biri olduğunu deyib. O, ölkəmizin tarixinin 30 ildən artıq bir dövrünün, bu illər ərzində bütün sahələrdə dirçəlişin məhz ulu öndərin adı ilə sıx bağlı olduğunu diqqətə çatdırıb.

Səfir ümummilli lider Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi dövrdə Azərbaycanın məsuliyyətini öz çiyinlərində daşıdığını, onu bir dövlət kimi tarixin ağır və sərt sınaqlarından çıxara bildiyini, ölkənin gələcək inkişaf strategiyasını müəyyən etdiyini və onun həyata keçirilməsi üçün mühüm addımlar atdığını söyləyib. Bildirib ki, bu gün həm ana Vətənimiz Azərbaycanda, həm də onun hüdudlarından kənarda ulu öndərin əziz xatirəsi dərin hörmət və ehtiramla yad edilir.

Azərbaycançılıq məfkurəsinin ideoloji əsaslarını qoyan ulu öndərin müasir, demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu, vətəndaş cəmiyyətinin təşəkkülü, milli mənəvi dəyərlərə qayıdış, elmin, təhsilin və mədəniyyətin inkişafındakı roluna xüsusi diqqət yetirən səfir Əkrəm Zeynallı onun rəhbərliyi altında müəyyənləşdirilmiş xarici və daxili siyasətin nəticəsində Azərbaycanın dünya ölkələri arasında öz layiqli yerini tutduğunu vurğulayıb.

Ulu öndərin bizə miras buraxdığı müstəqil Azərbaycan Respublikasının bu gün etibarlı əllərdə olduğunu qeyd edən səfir ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu siyasi kursun hazırda Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini deyib. Hazırda Azərbaycanın öz tarixində ən qüdrətli dövrünü yaşadığını söyləyən səfir ölkəmizin bütün sahələrdəki sürətli inkişafının əsasında Heydər Əliyev uzaqgörənliyinin, dahiliyinin və yüksək amallarının dayandığını qeyd edib.

Tədbirdə ümummilli lider haqqında “Vətənə, xalqa həsr edilən ömür” sənədli filmi nümayiş etdirilib, ehsan süfrəsi açılıb.

*Şahin CƏFƏROV,*
*AZƏRTAC-ın xüsusi müxbiri*

**Pekin**

## Belçika

❐ ***Dekabrın 12-də Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin vəfatının 14-cü ildönümü ilə əlaqədar Brüsseldə anım mərasimi keçirilib.***

Tədbirdə Azərbaycan Respublikasının Belçika Krallığı və Lüksemburq Böyük Hersoqluğundakı səfirliyinin, ölkəmizin NATO yanında daimi nümayəndəliyinin və yerli diaspor təşkilatlarının nümayəndələri iştirak ediblər.

Səfir Fuad İsgəndərov ulu öndərin keçdiyi şərəfli ömür yolundan danışaraq, məhz ümummilli lider Heydər Əliyevin uzaqgörənliyi, iradəsi və əvəzsiz siyasi strategiyası sayəsində Azərbaycan Respublikasının bu gün dünya ölkələri tərəfindən etibarlı tərəfdaş kimi qəbul edildiyini vurğulayıb. Ulu öndər Heydər Əliyevin dünyanın görkəmli siyasi xadimləri arasında xüsusi yeri və çəkisi olduğunu diqqətə çatdıran səfir F.İsgəndərov dahi şəxsiyyətin siyasəti və siyasi nailiyyətlərinin daim yaşadılmasının önəmini qeyd edib, bütün həmvətənlərimizi Heydər Əliyev irsinin qorunub saxlanılmasında yaxından iştirak etməyə səsləyib.

Mərasimdə çıxış edənlər də Azərbaycan dövlətçiliyinin qurulmasında müstəsna rol oynamış Heydər Əliyev irsinin əbədi olaraq yaşayacağına əminliklərini ifadə ediblər.

*Pərvanə QARAYEVA,*
*AZƏRTAC-ın xüsusi müxbiri*

**Brüssel**

## İran

❐ ***Azərbaycanın Təbrizdəki baş konsulluğunda xalqımızın ümummilli lideri Heydər Əliyevin anım mərasimi keçirilib.***

Mərasimdə ulu öndərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib, müqəddəs “Qurani-Kərim”dən ayələr oxunub.

Azərbaycanın Təbrizdəki baş konsulu Əliyənnağı Hüseynov çıxış edərək Ulu Öndərin Azərbaycan xalqı qarşısında misilsiz xidmətlərindən bəhs edib.

Qeyd olunub ki, Heydər Əliyevin yarım əsrlik bir zamanda Azərbaycanın siyasi rəhbəri olub, müasir və müstəqil Azərbaycan dövlətinin memarı və qurucusudur. Ümummilli lider Heydər Əliyevin əbədiyyətə qovuşmasına baxmayaraq onun ideyaları yaşayır və Azərbaycanın işıqlı gələcəyinə xidmət edir. Azərbaycan xalqı Heydər Əliyev şəxsiyyətini həmişə uca tutaraq onun ölkəmiz və dövlətimiz üçün həyata keçirdiyi tarixi missiyanı yüksək qiymətləndirir.

Baş konsul bildirib ki, 1969-cu ildə birinci dəfə siyasi hakimiyyətə gələn Ulu Öndər qısa zaman kəsiyində Azərbaycanın hərtərəfli yüksəlişi üçün uzunmüddətli inkişaf strategiyasının möhkəm təməlini qoyaraq əsas istiqamətləri müəyyən etmişdi. İkinci dəfə siyasi hakimiyyətə qayıdışı isə ölkəmizdə vətəndaş müharibəsi təhlükəsinin tüğyan etdiyi, təcavüzkar Ermənistanın torpaqlarımıza qəsd etdiyi bir dövrə təsadüf etmişdi. Hər iki halda ulu öndər böyük müdrikliklə xalqın birliyinə söykənərək ölkəmizi işıqlı yola çıxarmağa nail ola bildi. Sovet İttifaqı dövründə qısa zaman kəsiyində ölkədə sənaye və kənd təsərrüfatında inkişafa nail olan Heydər Əliyevin 1993-cü ildə isə ilk növbədə xalqın birliyini təmin etdi, ölkəni anarxiya və xaosdan xilas etdi. Azərbaycanın müstəqilliyini möhkəmləndirərək onu inkişaf istiqamətinə yönəltdi.

Baş konsul vurğulayıb ki, Heydər Əliyevin siyasi fəaliyyətinin və idarəetmə prinsipinin əsasını qurub yaratmaq, insanların rifahını yüksəltmək, xalqlar və ölkələr arasında dostluq, insanların yüksək təhsil almasına yaxşı şərait yaratmaq, nümunəvi səhiyyə xidmətləri qurmaq, insanların məşğulluğunu təmin etmək təşkil edib. Məhz buna görə də o, həmişə milyonların sevimlisi olub.

Müstəqil Azərbaycan dövlətinə rəhbərlik etdiyi dövrdə mehriban qonşuluq və səmimi dostluq ulu öndər Heydər Əliyevin xarici siyasət kursunda prioritet istiqamətlərdən biri idi. 1994-cü il iyunun 29-da Prezident Heydər Əliyev İran İslam Respublikasına rəsmi səfər etmişdi. Səfər zamanı İranın rəhbərləri ilə keçirdiyi görüşlərdə qəbul olunan qərarlar Azərbaycan-İran münasibətlərində yeni bir mərhələnin başlanğıcı oldu.

Baş konsul sadalanan faktlar əsasında qeyd edib ki, zaman keçdikcə Heydər Əliyev dühasının nuru daha uca zirvələri fəth edəcək. Ulu öndər Heydər Əliyevin siyasi kursuna sadiq qalaraq ölkə Prezidenti İlham Əliyev sülh, əmin-amanlıq, tərəqqi və inkişaf siyasəti yürüdür.

Ə.Hüseynov bildirib ki, ümummilli lider, müdrik rəhbər və dahi şəxsiyyət Heydər Əliyevin əziz xatirəsi Azərbaycan xalqının qəlbində həmişə əbədi yaşayacaq.

Çıxışdan sonra ehsan süfrəsi açılıb.

Mərasimdə İranın Şərqi Azərbaycan Vilayətinin Baş Mədəniyyət və İslami İrşad İdarəsinin baş direktoru Məhəmməd Məhəmmədpur, Təbriz Şəhər İcra Hakimiyyəti başçısının siyasi və ictimai məsələlər üzrə müavini Səid Bərzigər, İranın Xarici İşlər Nazirliyinin Şimal-Qərb Nümayəndəliyinin rəhbəri İsmayıl Rağeb Babayi, Təbriz Universitetinin xarici əlaqələr məsələləri üzrə prorektoru, Türkiyə Respublikasının Təbrizdəki baş konsulu və əməkdaşları, şəhər ictimaiyyətinin nümayəndələri və Təbrizdə yaşayan Azərbaycan vətəndaşları iştirak ediblər.

*Rabil KƏTANOV,*
*AZƏRTAC-ın xüsusi müxbiri*

**Tehran**